**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.321

**NIGAR BAYRAMOVA***

# QILMAN SALAHOVUN AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİNDƏ FƏALİYYƏTİNƏ BİR NƏZƏR

*Təqdim olunan məqalədə Əməkdar incəsənət xadimi, tanınmış kamança ifaçısı Qılman Salahovun Azərbaycan xalq çalğı alətləri orkestrində fəaliyyətinə nəzər salınır. Məqalədə orkestrdə fəaliyyət göstərdiyi dövrdə Qılman Salahovun ifaçılıq xüsusiyyətləri işıqlandırılır və özünəməxsus çalğı texnikası haqqında məlumat verilir. Məqalənin əsas məqsədi Q.Salahovun Azərbaycan xalq çalğı alətləri orkestrində fəaliyyətini işıqlandırmaqdan ibarətdir. Məqalədə qeyd olunur ki, Q.Salahov professional ifa tərzi ilə Azərbaycan xalq çalğı alətləri orkestrini zənginləşdirmiş və dinləyicilər arasında böyük rəğbət qazanmışdır.*

***Açar sözlər***: *Qılman Salahov, Üzeyir Hacıbəyli, xalq çalğı alətləri orkestri, fəaliyyət*

Azərbaycan musiqi mədəniyyətinin tanınmış simalarından olan, istedadlı kamança ifaçısı, Əməkdar incəsənət xadimi Qılman Salahovun zəngin yaradıcılıq fəaliyyətinin bir hissəsini onun ifaçılıq sahəsi təşkil edir. Professional ifaçılıq bacarıqlarına yiyələnmək məqsədilə Azərbaycan Musiqi Texnikumunda kamança sinfində təhsil alması Q.Salahovun ifaçı kimi formalaşmasına təsir göstərmiş və onun püxtələşərək, sənət yolunda addımlamasında əhəmiyyətli dərəcədə rol oynamışdır.

Kamança alətinin ifaçılıq imkanlarına bələd olan və öz bacarıqları sayəsində aləti mükəmməl şəkildə ifa etməyi bacaran Q.Salahov hələ tələbə ikən ifaçılıqla məşğul olmuş, peşəkarlığı sayəsində müxtəlif tərkiblərdə çıxış edərək, səhnə təcrübəsini daha da artırmışdır.

Yaradıcılıq fəaliyyətinin ilk dövrlərində Azərbaycan Radio Komitəsinin Xalq Çalğı alətləri ansamblında fəaliyyət göstərən Q.Salahov qısa müddət ərzində öz ifaçılıq bacarıqları ilə musiqiçilərin, xüsusilə də həmin dövrdə radioya rəhbərlik edən M.Maqomayevin və milli alətlərin professional musiqiyə daxil olmasına cəsarətli şəkildə çalışan Ü.Hacıbəylinin diqqətini cəlb etmişdir. İstedadlı ifaçıların üzə çıxarılmasına çalışan Ü.Hacıbəyli digər bacarıqlı musiqiçilər kimi Q.Salahovu da diqqətində saxlayaraq, onun öz üzərində çalışmasına və ifaçılıq bacarıqlarını təkmilləşdirməsinə qayğı və diqqətlə yanaşmışdır.

1931-ci ildə Ü.Hacıbəylinin böyük səyləri nəticəsində Azərbaycan musiqisində əlamətdar hadisə baş verdi: İlk notlu xalq çalğı alətləri orkestri yarandı. Ü.Hacıbəylinin uzun illər boyu öz fəaliyyətində milli xalq çalğı alətlərimizi professional musiqiyə daxil olması üçün çalışması və milli musiqi mədəniyyətimizin əsas istiqamətlərindən birini müəyyənləşdirən bu hadisə milli alətlərdə ifa edən musiqiçilər üçün də geniş imkanlar açdı.

Ü.Hacıbəylinin kamança alətini də orkestrin tərkibinə daxil etməsi bu istiqamətdə geniş imkanların yaradılmasına səbəb oldu. Bu barədə dahi bəstəkar Ü.Hacıbəyli yazırdı: *"Uzunsəsli, telli aləti – musiqiyyəmizin yeganə nümayəndəsi də kamançadır. Kamançanın telləri üzərində ucları uzun bir çubuğa rəbt edilmiş tük dəstəsi ilə çalındığından hasil edilən səsləri istədikcə uzatmaq olar. Buna görə də kamançada çalınan musiqi tarda çalınandan daha səscə daha mükəmməl və insanın səsinə yaxın olar. Əlavə, kamança səsinin baxüsus "bəm"də tardan daha təsirli olduğunu nəzərə alsaq və tellər üzərində barmaq qoyub "vibrasion" deyilən titrək səslər hasil edilməsini dəxi əlavə etsək, kamançanın tardan daha kamil və faiq bir aləti – musiqiyyə olduğu meydana çıxar. Zatən tar "akompaniman" üçün yarar bir alət olduğu halda, kamança "melodik" alətlərdən ən gözəlidir"* [7, s. 145].

Bu dövrdə Ü.Hacıbəyli ansamblı təşkil etmək üçün tanınmış ifaçıları toplayır və onları birgə fəaliyyətinin təşkili üçün mühüm addımlar atırdı. Qeyd olunmalıdır ki, bu dövrdə hələ milli alətlərimizdə notla çalan ifaçılar məhdud sayda olduğundan, Ü.Hacıbəyli professional təhsil almış musiqiçilərin ansambl tərkibində toplanmasına xüsusi diqqət yetirirdi. Qeyd edək ki, ansambl ilk yaranan dövrdə bura on iki ifaçı cəlb olunsa da, tədricən onların sayı iyirmi iki nəfərə çatır.

Q.Salahov orkestrin tərkibində kamança ifaçısı kimi daxil idi. Bundan əlavə, orkestrin tərkibinə 2 balaban, 2 tar, 2 kamança, 1 dəf, 1 nağara daxil idi.

Belə ki, Q.Salahov 1931-ci ildə Ü.Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrində əvvəlcə solist kimi fəaliyyətə başlayır. Daha sonra isə dirijor kimi fəaliyyətini davam etdirmişdir. Təsadüfi deyildir ki, Q.Salahovun solist kimi konsert yaradıcılığına başlaması məhz həmin orkestrin sayəsində baş tutmuşdur.

Azərbaycan xalq çalğı alətləri orkestrində fəaliyyətə başlayan Q.Salahovla yanaşı, burada Səid Rüstəmov, Əlövsət Sadıqov, Bəhram Mansurov, Xosrov Məlikov və digərləri də fəaliyyət göstərirdi. Q.Salahov yalnız orkestrdəki kamança fəaliyyəti ilə məhdudlaşmır, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olmuşdur.

Əsasən musiqi texnikumunda təhsil alan ansamblın üzvlərinə ilk vaxtlar Ü.Hacıbəyli rəhbərlik etsə də, daha sonra bu iş Səid Rüstəmova tapşırılır. İlk vaxtlar ansamblın bədii rəhbəri və dirijoru Ü.Hacıbəyli olsa da, daha sonra Səid Rüstəmov onun köməkçisi və konsertmeysteri təyin edilir.

Qarşıda duran ən çətin məsələlərdən biri də orkestrin repertuarının yaradılması ilə bağlı idi. Bütün bunları nəzərə alan Ü.Hacıbəyli qısa müddət ərzində "Şur" və "Çahargah" fantaziyalarını bəstələyir, bu əsərlərdə milli xalq çalğı alətlərinin özünəməxsus cəhətləri ilə istifadə olunmasına böyük üstünlük verirdi. Xüsusilə, Ü.Hacıbəyli hər bir milli xalq çalğı alətinin ifaçılıq üsullarının və tembr zənginliklərinin saxlanılmasına çalışır, ifa olunan əsərlərdə melodik inkişafın bütün alətlərdə rəngarəng şəkildə paylanmasına nail olurdu. Ü.Hacıbəyli musiqi sənətimizdə ümumavropa klassik musiqisinə xas irihəcmli formaların tətbiq edilməsi imkanlarını göstərərək, digər milli alətlərin, o cümlədən kamançanın ifaçılıq üsullarının üzə çıxarılmasına səy göstərirdi.

Orkestrdə fəaliyyət göstərdiyi dövrdə Q.Salahovun əsas məqsədi xalq musiqi ənənələrinin qorunması və gənc nəslə ötürülməsi zamanı onların qorunub saxlanılması idi. Milli dəyərlərə malik bir ifaçı kimi Q.Salahov bu prinsiplərini hər zaman açıqlayır və milli dəyərlərin qorunmasında fəal şəkildə iştirak edirdi. O, bu istiqamətdə qüvvə və bacarıqlarını heç bir zaman əsirgəmirdi. Q.Salahov xalq musiqi ənənələrinin inkişafı yolunda bacarıqla çalışır, həm öz ifaçılıq bacarıqlarını təkmilləşdirir, həm də gənc ifaçıların milli musiqinin xüsusiyyətləri ilə yaxından tanış olmasında fəal şəkildə iştirak edirdi. Özünün bütün istedadını və enerjisini Q.Salahov Azərbaycan xalq çalğı alətləri ansamblının inkişafına, milli musiqinin xüsusiyyətləri ilə zənginləşməsinə və eyni zamanda gənc istedadların çiçəklənməsinə həsr edərək bu sahədə bacarıqlı bir şəkildə yeni yollar açmağa çalışırdı.

Q.Salahovun orkestrin tərkibində daha bir fəaliyyəti isə kamançanın ifaçılıq texnikasını Avropa ənənələrinə yaxınlaşdırmaqdan ibarət idi. O, sözün əsl mənasında, ustad kamança ifaçısı idi. Xalq musiqi incilərini, xüsusilə də muğam sənətini dərindən bilməsi ona muğamları özünəməxsus poetik bir üslubda ifa etməsinə imkan yaradırdı. Eyni zamanda Q.Salahovun ifasında hər hansı bir musiqini dinləyən zaman insan qəlbinin ən incə hisslərinin inikası, kədəri və sevinci, gərginliyi və zərifliyi öz əksini tapırdı.

Q.Salahov yüksək ifaçılıq texnikasına malik olan ifaçı idi. Onun kamil çalğı texnikası və ifa etdiyi əsərləri dərindən bilməsi imkan verirdi ki, insanı öz ifası ilə valeh etsin. Elə bunun nəticəsidir ki, Q.Salahovun kamançanın ifaçılıq texnikasını məharətlə öz ifasına tabe edir və muğamın dərinliklərini sevimli alətində canlandıraraq, orkestrin tərkibində onun mövqeyinin müəyyən olunmasına bilavasitə öz təsirini göstərmişdir.

Q.Salahov kamançanın ifaçılıq mədəniyyətini yeni səviyyəyə qaldırmağa nail olmuş və müxtəlif janrlı musiqi nümunələrinin daha rəngarəng səslənməsini öz ifası ilə rövnəqləndirmişdir. O, XX əsrin əvvəllərində kamança ifaçıları arasında muğamları çalmaqda, eləcə də orkestrdə müşayiət etmək qabiliyyətinə malik olması ilə seçilməyi bacarırdı.

Qılman Salahov bu illərdə ən yaxşı kamança çalanlardan biri idi, o, "Şüştər", "Dügah", "Yetim segah" muğamlarının ən yaxşı ifaçısı kimi tanınırdı. Onun kamança alətində özünəməxsus şəkildə mahnı və rəqsləri səsləndirməsi, muğam sənətinin incəliklərini öz ifasında canlandırması xüsusilə qeyd olunmalıdır.

Q.Salahovun gərgin iş fəaliyyəti, ansamblın tərkibində müxtəlif kosert proqramlarında iştirak etməsi də vurğulanmalıdır. Bu dövrdə ansambl üçün ilk əsərlər Ü.Hacıbəyli tərəfindən yaradılırdı

və təbii ki, ansambl geniş konsert fəaliyyəti ilə məşğul olduğuna görə, qısa müddətdə əsərlərin öyrənilməsi və mənimsənilməsi lazım idi. Q.Salahovun istedadının göstəricisi idi ki, o, əsərləri tez öyrənərək, onları qısa zamanda mənimsəyirdi. Bu da Q.Salahovun yüksək istedadının və ifaçılıq bacarıqlarının əsas göstəricisi kimi əhəmiyyətli idi.

Azərbaycan xalq çalğı alətləri orkestrində fəaliyyət göstərdiyi dövrdə Q.Salahov xalq musiqisinin emosional koloritinin göstərilməsinə, ritminə və tempinə, bədii cəhətlərinin üzə çıxarılmasına ciddi şəkildə riayət etmiş, milli musiqi mədəniyyətimizə xas ritmik xüsusiyyətlərin qorunub saxlanılmasına çalışmışdır.

Q.Salahov təbii ifa keyfiyyətlərinə malik olan bir sənətkar, kamança ifaçısı idi. O, kamançada ifası zamanı çeviklik göstərməklə müxtəlif janrlı əsərləri asanlıqla ifa edirdi. Xəlqilik və millilik, yüksək daxili mədəniyyət onun çalğı üslubunun əsas xüsusiyyətini təşkil edirdi. Muğam dünyasının dərinliklərinə bələd olan Q.Salahov öz zəkası ilə rənglər və dəramədlərin, diringələrin musiqisini mənimsəyərək, onların klassik quruluşunu saxlamağa çalışırdı.

Q.Salahovun muğamlarımıza, xalq musiqisinə, eyni zamanda Avropa musiqi alətlərinə bələd olması, Qərb musiqi ənənələrini mənimsəməsi onun sənətkar kimi formalaşmasında mühüm rol oynamışdır. Onun istedad və peşəkarlığı sayəsində Azərbaycan Xalq Çalğı Alətləri orkestrində fəaliyyət göstərdiyi dövrdə xəlqilik və millilik elementləri onun ifasına hopmuşdur. Milli musiqinin janrlarına bələd olması, xalq musiqisində ustalıqla bəhrələnməsi, Q.Salahovun ifa tərzinin əsas istiqamətlərini təşkil etmişdir. Q.Salahovun texniki imkanları, bədii üslubunun xüsusiyyətləri, onun musiqi istedadının üzə çıxarılmasına böyük təsir göstərmişdir. Onun yaradıcılığında Qərb və Şərq musiqi dünyasının qovuşması özünü göstərir. Vaxtilə təhsil aldığı dövrdə musiqi tarixi və nəzəriyyəsini mənimsəməsi və dəqiqliklə öyrənməsi, ifa zamanı ənənələrə əsaslanan xüsusiyyətləri canlandırması, muğam şöbələrini ifa edən zaman onları özünəməxsus şəkildə zənginləşdirməsi Q.Salahovun ifaçı kimi bacarıqlarının göstəricisidir.

Q.Salahovun muğam dəstgahlarını və instrumental muğamları nota salınması işinə də peşakarcasına yanaşması da diqqətəlayiq hal kimi dəyərləndirilə bilər. O, xalq musiqisinin incəliklərinə bilən ifaçı kimi folklor musiqisindən və muğamlardan qidalanmış, milli koloriti, xalq musiqisinə xas olan elementləri öz ifasında canlandırmağa nail olmuşdur. Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərdiyi dövrdə Q.Salahov xalq mahnıları, el havaları ilə yanaşı, bəstəkar əsərlərini də öyrənmiş və peşəkarcasına onları öz ifasında canlandırmışdır.

Q.Salahovun məharəti onda idi ki, o, mahir kamança ifaçısı kimi kamançada Avropa musiqi janrlarına aid olan əsərləri mükəmməl şəkildə səsləndirmişdir. O, orkestrdə çalışdığı dövrdə Avropa musiqisinin xüsusiyyətlərini bildiyi üçün müxtəlif janrlı əsərlərin orkestrləşməsini dərk edir və öz ifası ilə səsləndirməyə nail olurdu.

Q.Salahov professional təhsil alması onun ifaçılığına da bilavasitə öz təsirini göstərirdi. Gözəl musiqi mədəniyyətinə malik olması ifaçılığı ilə yanaşı, nəzəri biliklərinin də təkmilləşməsinə öz təsirini göstərirdi. Belə ki, Q.Salahov musiqi formalarını, harmoniya və orkestrin xüsusiyyətlərinə bələd idi. O, ifa etdiyi əsərin və yaxud melodiyanın çalarlarına diqqət yetirir, ifaçı-musiqiçi kimi ən yaxşı ənənələri mənimsəyərək davam etidrməyə çalışırdı.

Q.Salahov kamançada incə və zərif çalğı üslubuna daha çox üstünlük verirdi. Eyni zamanda o, orkestrin tərkibində fəaliyyət göstərdiyi dövrdə Azərbaycan bəstəkarlarının, xüsusilə də Ü.Hacıbəylinin əsərlərini məharətlə ifa edir, eyni zamanda Avropa bəstəkarlarının da əsərlərini özünəməxsus məharət və ustalıqla səsləndirirdi.

Aydın intonasiyalar, dəqiq ritm və melodik xəttin inkişaf xüsusiyyətlərinin dəqiq verilməsi Q.Salahovun ifaçılığının əsas xüsusiyyətlərini təşkil edirdi. Bunun nəticəsidir ki, Q.Salahovun ifasında hər zaman dəqiqlik və həmahənglik özünü göstərmişdir.

Q.Salahovun Azərbaycan xalq çalğı alətləri orkestrində başladığı fəaliyyət onun gələcək yaradıcılıq yolunu da müəyyənləşdirmişdir. Belə ki, onun müxtəlif ansamblların tərkibində solist, konsertmeyster kimi fəaliyyəti, eləcə də Ü.Hacıbəylinin rəhbəri olduğu xora dirijorluq etməsinin təməli məhz Q.Salahovun orkestrdə fəaliyyət göstərdiyi illərdə əldə etdiyi təcrübə ilə bağlı olmuşdur.

Qeyd edək ki, Q.Salahovun bu orkestrdə göstərdiyi fəaliyyəti onun gələcək yollarının da istiqamətlənməsində mühüm rol oynamışdır. Onun Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında fəaliyyəti burada topladığı təcrübədən və əldə etdiyi bacarıqlardan qaynaqlanmışdır. Ansamblın uğurlu çıxışlarında Q.Salahovun rolu hər zaman əhəmiyyətli olmuş və kamança alətinin professional musiqi tərkiblərində çıxışları üçün geniş imkanlar yaratmışdır.

## ƏDƏBİYYAT


1. Abdullayeva, S.A. Azərbaycan folklorunda çalğı alətləri / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2007, – 216 s.
2. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2002. – 454 s.
3. Əsədullayev, A.M. Bayatı-Şiraz və Hümayun / A.M.Əsədullayev. – Bakı: Adiloğlu. – 2003. – 48 s.
4. Əsədullayev, A.M. Rast və Çahargah / A.M.Əsədullayev. – Bakı: Adiloğlu – 2005. – 56 s.
5. Əsədullayev, T.M. Kamança ifaçıları və onların muğam sənətinin inkişafında rolu və əhəmiyyəti: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2015. – 140 s.
6. Əzimli, F.N. Azərbaycan muğam məktəbi / F.N.Əzimli. – Bakı: R.H.Novruz-94 İKF, – 2008. – 256 s.
7. Hacıbəyli, Ü.Ə.Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – 360 s.


***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***"Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: Orqanologiya və Akustika" elmi-tədqiqat laboratoriyasının elmi işçisi***

**Nigar Bayramova**

## A LOOK AT QILMAN SALAHOV'S ACTIVITY IN THE AZERBAIJAN FOLK INSTRUMENTS ORCHESTRA

The presented article reviews the activity of Honored Art Worker, well-known kamancha player Qilman Salahov in the Azerbaijan Folk Instruments Orchestra. The article highlights Qilman Salahov's performance characteristics during his time in the orchestra and provides information about his unique playing technique. The main purpose of the article is to highlight G.Salahov's activity in the Azerbaijan Folk Instruments Orchestra. The article notes that G.Salahov enriched the Azerbaijan Folk Instruments Orchestra with his professional playing style and gained great popularity among listeners.

**Keywords:** *Qilman Salahov, Uzeyir Hajibeyli, folk instruments orchestra, activity*

**Нигар Байрамова**

## ВЗГЛЯД НА ДЕЯТЕЛЬНОСТЬ ГЫЛМАНА САЛАХОВА В ОРКЕСТРЕ АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ИНСТРУМЕНТОВ

В представленной статье рассматривается деятельность заслуженного деятеля искусств, известного кяманчиста Гылмана Салахова в оркестре азербайджанских народных инструментов. В статье освещаются исполнительские качества Гылмана Салахова в период

его работы в оркестре и дается информация о его уникальной технике исполнительства. Основная цель статьи – осветить деятельность Г.Салахова в оркестре азербайджанских народных инструментов. В статье отмечается, что Г.Салахов обогатил оркестра народных инструментов своим профессиональным стилем исполнительства и завоевал большую популярность у слушателей.

**Ключевые слова:** *Гылман Салахов, Узеир Гаджибейли, оркестр народных инструментов, деятельность*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 04.11.2025**
**Son daxilolma tarixi:12.11.2025**